# EKOLOJİ ŞƏRAİTİN MƏSKUNLAŞMAYA TƏSİRİ

**R.T.TAHİROV**
***Bakı Dövlət Universiteti***
***ramiz55@mail.ru***

*Məqalədə Quba-Xaçmaz bölgəsində kənd məskunlaşmasının ekoloji şəraitə təsirinin nəzəri məsələləri araşdırılır.*

Əhalinin məskunlaşmasının əsaslarını təbii ekoloji şərait, insan birlikləri və istehsal təşkil edir. Təbii-ekoloji şərait və təbii ehtiyatların təsərrüfata təsiri əsas amillərdən biri olmaqla, elmi-texniki tərəqqinin xarakterindən də çox asılıdır.

Əhali məskunlaşmasında baş verən proseslər bioloji, coğrafi, sosial və iqtisadi amillərin nəticəsidir. Bu proseslər ətraf mühiti formalaşdırır, məskunlaşmanın idarə edilməsində xüsusi yer tutur. Bunlarla yanaşı Respublikada mövcud olan istehsal münasibətləri, sosial-siyasi durum, mülkiyyət formaları məskunlaşmaya təsir göstərir. Deyilənlərlə yanaşı əhalinin milli-etnik, psixoloji xüsusiyyətləri və s. də əhali məskunlaşmasına təsiri vardır.

İnsanlar meşələri qırmaq, yollar çəkmək, kənd və qəsəbələr tikməklə daim təbii şəraiti dəyişir ki, müvafiq olaraq məskunlaşmanın təbii-ekoloji şəraitə tələbatı, ondan istifadə imkanları və istifadə zamanı qarşıya çıxan çətinliklərin dəf edilməsi imkanları da dəyişir.

Xüsusilə kənd məskunlaşmasının mövcudluğu və inkişafına lazım olan əsas şərtlərdən biri təbii ekoloji şəraitdir. Məskunlaşma ilə təbii-ekoloji şərait arasındakı qarşılıqlı təsirlər, məskunlaşmanın daha fəal rolu ilə müşayiət olunur. Təbii ekoloji şəraitin məskunlaşmaya təsiri çox rəngarəng və müxtəlif formalarda təzahür edir. Belə ki, bu təsirlər həmişə məhsuldar qüvvələrin inkişaf səviyyəsi, istehsal münasibətləri, mülkiyyət forması və s. ilə şərtlənir. Buna görə də bəzən eyni olan təbii ekoloji şərait məskunlaşmaya müxtəlif dərəcədə və eyni zamanda məskunlaşma da təbii-ekoloji şəraitə müxtəlif tərzdə təsir göstərir.

Ekoloji şəraitin məskunlaşmaya təsirini araşdırarkən bu təsirlərin təsir mexanizmini, formalarını, şərtlərini və tarixi dəyişkənliyini düzgün qiymətləndirmək lazımdır. Bu zaman ən azı iki təsir formasını ayırmaq lazımdır:

I – mühitin təsərrüfatçılıq xüsusiyyətlərinə və məskunlaşmaya təsiri;

II – təbii-ekoloji şəraitin kəndlər üçün yerin seçilməsi, layihələşdirmə, planlaşdırma, konstruktiv üsullara və tikinti materiallarına təsiri.

Ekoloji şəraitin məskunlaşmaya təsirinin bu hər iki forması bir-biri ilə sıx bağlı olmaqla hər biri özünə xas xüsusiyyətlərə malikdir.

Məskunlaşmanın təbii şəraitə təsirinin birinci əsas formasına nəzər yetirərkən mühitin sosial, siyasi və iqtisadi şəraitinin təbii-ekoloji şəraitə və əksinə təsirini

dəyərləndirərkən mövcud sosial-siyasi şəraitin məskunlaşmaya və ekoloji şəraitə qarşı qoyulan tələblər baxımından dəyərləndirilməlidir.

Məskunlaşmanın təbii şəraitə təsirinin ikinci forması da məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə bağıdır. Mövcud mülkiyyət formalarının məskunlaşma və təbii şəraitə təsirini dəyərləndirmək, belə ki, təsərrüfatın ərazi fərqlərinin xarakteri istehsal qüvvələri və istehsal vasitələrinin mülkiyyət formasından asılı olaraq dəyişir. Məskunlaşmada yaranan fərqlər hər şeydən əvvəl təsərrüfat xüsusiyyətləri, sonra isə təbii-ekoloji şəraitin tələbləri ilə yaranır. Eyni zamanda bu təsirlərin əsasında həm də təsərrüfatın tələbləri durur. Belə ki, mövcud mülkiyyət formalarının məskunlaşma və ekoloji şəraitə təsirini dəyərləndirmək, təsərrüfatın ərazi fərqlərinin xarakteri, istehsal qüvvələri və istehsal vasitələrinin mülkiyyət formasından asılı olaraq dəyişir.

Məskunlaşmada yaranan fərqlər hər şeydən əvvəl təsərrüfat xüsusiyyətləri, sonra isə təbii şəraitin tələbləri ilə yaranır. Belə ki, kəndlər yaşayış məskənləri kimi su təminatına, relyefinə, qrunta, mikroiqlim şəraitinə, daşqın, sel və s. kimi hadisələrinə qarşı müəyyən tələbləri irəli sürür. Burada birinci təsir forması arxa planda qaldığından ekoloji şərait birbaşa və dolayısı ilə məskunlaşmanı məhdudlaşdırır və limitləşdirir, belə ki, ən yaxşı ekoloji şəraitə malik ərazilər – bu məskunlaşma əraziləri tarixən, məhsuldar qüvvələrə görə öz görkəmini dəyişir, vaxtilə məskunlaşma üçün əverişli sayılan ərazilər müasir dövrdə çox əlverişsizdir. Məsələn, Quba-Xaçmaz bögəsinin dağ kəndlərinin əksəriyyəti tarixən müdafiə baxımından dağların əlçatmaz zirvələrində salındığından evlərin yerləşdirilməsi və su təminatlarında böyük çətinliklər yaratmışdır.

Məskunlaşma və ekoloji şəraitin müxtəlif elementlərinin tarixən yenidən qiymətləndirilməsi baş verir. Belə ki, keçmişdə məskunlaşma üçün ən əlverişli sayılan təbii-ekoloji amillər indi əhəmiyyətini itirmiş və yeniləri ilə əvəz olunmuşdur (bulaq, çaylar, su quyuları və s.). Müasir dövrdə göstərilən amillərin əhəmiyyəti azalsa da tamamilə yox olmamışdır. Sadəcə təsərrüfatın müasir inkişaf səviyyəsi artezian quyularının qazılması, su kəmərlərinin çəkilməsini imkanlarını yaratmışdır.

Müasir dövrdə kəndlərin gigiyena-epidemiologiya, relyef, nəqliyyat yollarının salınması imkanlarına xüsusi yer verilir.

Buradan bu qənaətə gəlmək lazımdır ki, məskunlaşma baxımından təbii-ekoloji şəraitin qiymətləndirilməsi müəyyən tarixi mərhələ üçün dəyərləndirilə bilər.

Quba-Xaçmaz bölgəsində kənd məskənləri yaradılarkən məskunlaşmanın tikinti-layihələşdirmə işlərini apararkən aşağıdakı müasir tələblərə diqqət yetirmək yaxşı olardı:

1) Quruntun xarakterindən asılı olaraq relyefin meylliyi 1,5-6,0% (0,5% az olmamaq şərti ilə), səthin az parçalanması, yamacların ekspozisiyasının seçilməsi, güclü küləklərdən qorunması, aerasiya, yolların əlverişliliyi və s.;
2) Məskənlərin bataqlıqlardan, daşqın, sel, sürüşmələrdən təhlükəsizliyə diqqət yetirməli;
3) Qrunt sularının səviyyəsinin səthdən 1,5-2,5 m aşağı olmasına diqqət yetirməli;
4) Məntəqələrin daimi keyfiyyətli və davamlı su təminatı;
5) Yaxşı olar ki, kəndlər təbii su obyektlərinə yaxın yerləşdirilsin;
6) Kəndlərdə bağça, bağ, bostançılığın inkişaf etdirilməsi üçün torpaq şəraitini nəzərə almaq lazımdır;
7) Regionda sosial-iqtisadi vəziyyət və torpaq üzərində mülkiyyət forması

nəzərə alınmalıdır;

8) Regionda Dövlət əhəmiyyətli obyektlərin tikintisi üçün təbii-ekoloji şəraitin əlverişliliyi.

Adətən məskunlaşma üçün optimal şərait tapmaqda təbii-ekoloji şəraitin təsiri daha qabarıq nəzərə çarpır. Bölgənin müxtəlif inzibati rayonarında təbii-ekoloji şəraitin məskunlaşmaya təsiri də müxtəlifdir.

Təbii şəraitin məskunlaşmaya təsiri təkcə layihələşdirmə işlərində deyil, onun bütün mövcudluğu dövründə də özünü göstərir. Belə ki, bölgənin dağlıq zonasının əhalisi heyvandarlıqla məşğul olduqları halda, dənizkənarı və dağətəyi zonasının əhalisi tərəvəzçilik və bağçılıqla məşğuldurlar. Məskunaşma zamanı kəndlərin topoqrafik yerləşməsi forması və planlaşdırılmasında təbii-ekoloji şərait məskunlaşmanın əsas qanunauyğunluqlarından biridir.

## ƏDƏBİYYAT


1. Богданов Б.М. Планирование сельских населенных мест. Селхозис. М.: 1957, 153 с.
2. Довидович В.Г. Ресселенте в промышленных узлах. Госстрайиздат. М.: 1960, 97с.
3. Ковалев С.А. Сельское расселение. МГУ. М.: 1963, с.194.
4. Tahirov R.T. Quba-Xaçmaz bölgəsinin məskunlaşma tipəri. Bakı: Dərgi, 2001, №1, s. 47-52.
5. Tahirov R.T. Quba-Xaçmaz bölgəsində məskunlaşmaya təsir göstərən amillər. Bakı: Dərgi, 2000, №4, s. 37-43.
6. Tahirov R.T. Təbii-ekoloji şəraitin kənd məskunlaşmasına təsiri. Coğrafiyanın müasir problemləri. ACC BDU fil.əsər. Bakı: 2008, s. 192.


## ВЛИЯНИЕ ЭКОЛОГИЧЕСКОГО СОСТОЯНИЯ НА РАССЕЛЕНИЕ

**Р.Т.ТАИРОВ**

### РЕЗЮМЕ

В статье рассматриваются теоретические вопросы сельской расселений и вопросы взаимозависимости природно-экологических условий на сельское расселение и обратно.

## THE INFLUENCE OF ECOLOGICAL CONDITIONS ON SETTLINGS

**R.T.TAHIROV**

### SUMMARY

The article considers theoretical questions of rural movings and questions of interdependence of natural-ecological conditions on rural movings.